**İstehlaka yararsız ərzaqlıq kartof məhsulunun məhv edilməsinə dair məlumat**

**(4 aprel 2023)**

Nəzarət tədbirləri çərçivəsində Agentlik əməkdaşları tərəfindən fiziki şəxs Tağıyev Əhməd Şəmistan oğlunun İran İslam Respublikasından idxal etdiyi ərzaqlıq kartof məhsulundan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. Müayinələr nəticəsində idxal edilmiş 23700 kq ərzaqlıq kartof məhsulunda karantin tətbiq edilən fitopatogen bakteriyalar - kartofun qonur çürüməsi (*ralstonia solanacearum*) aşkar edilib.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq, sınaq nəticəsi uyğunsuz çıxmış ərzaqlıq kartof məhsulunun gömrük ərazisinin hüdudlarından kənarlaşdırılması, məhv edilməsi və ya utilizasiyası barədə qərar qəbul edilib. İstehlaka yararsız məhsul tullantılar üçün nəzərdə tutulmuş xüsusi poliqonda məhv edilib.